Ways to increase the investment security of economic entities in Aran economic region

Lyutveli Babaev
Doctor of Philosophy in Economics, doctoral student at the Agrarian Center for Science and Innovation Azerbaijan. E-mail: lutveli.babayev59@mail.ru
https://orcid.org/0000-0002-2769-9443

Abstract. The article analyzes and evaluates the organizational, economic and social situation of investment provision of business entities in Aran economic region of Azerbaijan on the basis of multi-statistical data using various research methods. At the same time, the main attention is paid to substantiating the relevance of the topic, the study of economic and geographical characteristics of the region, the volume of investments in fixed assets by businesses, their structure by industry, the renewal of fixed assets. Relevant reserve opportunities are identified, ways to use them are shown, and a substantially improved schematic diagram of the mechanism of impact of investments on economic-signal indicators is developed.
Key words: business entities, investments in fixed assets, investment projects, financial instruments, region.

http://dx.doi.org/10.29228/edu.331
JEL 01.016; **UDC** 332.338.24
To cite this article: Babaev L. (2021). Ways to increase the investment security of economic entities in Aran economic region. *Economic Growth and Social Welfare*, Issue I, pp. 117-126.
Article history: Received – 11.08.2020; Accepted –27.01.2021

Aran iqtisadi rayonunda sahibkarlıq subyektlərinin investisiya təminatının yaxşılaşdırılması yolları

Lütvəli Babayev
iqtisad üzrə fəlsəfə doktoru, Aqrar Elm və İnnovasiya Mərkəzinin doktorantı
Azərbaycan. E-mail: lutveli.babayev59@mail.ru
https://orcid.org/0000-0002-2769-9443

Annotasiya. Məqalədə Azərbaycanın Aran iqtisadi rayonunda sahibkarlıq subyektlərinin investisiya təminatının təşkilati-iqtisadi və sosial durumu çoxillik statistik məlumatlar əsasında, müxtəlif tədqiqat metodlarının köməyi ilə təhlil edilib qiymətləndirilmişdir. Bu zaman əsas diqqət mövzunun aktuallığının əsaslandırılmasına, regionun iqtisadi-coğrafi xarakteristikasının tədqiqinə, sahibkarlıq subyektləri üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcminə, onların sahələr üzrə quruluşuna, əsas fondların yeniləşdirilməsinə yönəldilmişdir. Müvafiq ehtiyat imkanları aşkara çıxarılaraq, onlardan istifadə yolları göstərilmiş, investisiyaların iqtisadi-siqnal göstəricilərə təsiri mexanizminin mahiyyətcə təkmil prinsipal sxemi işlənilmişdir.
Açar sözlər sahibkarlıq subyektləri, əsas kapitala investisiyalar, investisiya layihələri, maliyyə alətləri, region.

http://dx.doi.org/10.29228/edu.331
JEL 01.016; **UDC** 332.338.24
Məqaləyə istinad: Babayev L. (2021). Aran iqtisadi rayonunda sahibkarlıq subyektlərinin investisiya təminatının yaxşılaşdırılması yolları. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 117-126.
Məqalə tarixçəsi: göndərilib – 11.08.2020; qəbul edilib – 27.01.2021

Giriş / *Introduction*

Azərbaycanda mikro, kiçik və orta sahibkarlığın regionlarda və orada mövcud olan iqtisadi fəaliyyət sahələrində inkişafı bütünlükdə regional iqtisadiyyatın şaxələndirilməsi, onun rəqabət qabiliyyətiin artırılması, məşğulluğun (həm də özünüməşğulluğun) təmin edilməsi, çoxçeşidli istehlak mallarına artan tələbatın yerli resurslar hesabına ödənilməsi və davamlı regional iqtisadi inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hələ 2004-cü ildən başlayaraq hər beş ildən bir qəbul edilən regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarında Sahibkarlığın bütün növlərinin səmərəli təşkili, idarə edilməsi və onların investisiya təminatı məsələsi prioritet istiqamət kimi qeyd edilmiş və icrası yüksək səviyyədə təmin edilən əvvəlki üç proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizin iqtisadi regionları özünün dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Adı çəkilən proqramların hədəflərinə uyğun təkcə 2004-2019-cu illərdə respublikanın iqtisadi rayonlarında 1736 min yeni iş yeri açılmış, sahibkarlıq subyektlərinin sayı 13,5 dəfə artaraq 2020-ci ilin əvvəllərində 243 min vahidə

çatmışdır. Hazırda özəl sektorun ÜDM-dəki payı 85,0% təşkil edir (ASG, 2020). Suverenlik illərində sahibkarlığın və onun investisiya təminatının yaxşılaşdırılması üzrə müvafiq normativ-hüquqi baza yaradılmışdır. Son 15 il ərzində ölkə üzrə sahibkarlıq subyektlərinə 3,0 mlrd. manata yaxın güzəştli kredit verilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər sahibkarlıq fəaliyyətində azad rəqabət mühitinin formalaşmasına, istehsal edilən məhsulun həcminin və çeşidinin artmasına, keyfiyyətinin yüksəldilməsinə imkan yaratmışdır.

Əldə edilən nailiyyətlərə kölgə salmadan onu da qeyd etmək lazım gəlir ki, regionlarda sahibkarlıq fəaliyyətinin investisiya təminatı, innovasiya aktivliyi, ixrac imkanları istiqamətində bir sıra boşluqlar mövcuddur. Sahibkarlıq subyektləri xərclərin idarə edilməsi, aldıqları kreditlərin təyinatı üzrə xərclənməsi prosesində nöqsanlara yol verir ki, bu da nəticə etibarı ilə onların fəaliyyətinin dayandırılmasını şərtləşdirir. Rəsmi statistik məlumata görə, təkcə 2019-cu ildə 592 sahibkarlıq subyekti ləğv edilmişdir ki, onların da 179-u və yaxud 30,2%-i regionların payına düşür. Regionda fəaliyyətini dayandıran sahibkarlıq subyektlərinin 23,5%-i – Aran iqtisadi rayonu üçün xarakterik olmuşdur (Sİİ, 2016, s.111). Ölkənin iqtisadi regionlarında fərdi sahibkarların, fəaliyyəti lazımi səviyyədə koordinasiya edilmiş xarici və müştərək müəssisələrin sayı azlıq təşkil edir. Yerlərdə işgüzar sahibkarlıq sinfi lazımi səviyyədə təşkil edilmədiyindən, onlar investisiya çatışmazlığı ilə üzləşirlər. Qeyd edilən boşluqların aradan qaldırılması elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasının vacibliyini, məqalədə tədqiq edilən problemin isə aktuallığını şərtləndirir.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

Son illər sahibkarlıq fəaliyyətinin, regionların qeyri-neft sektorunda sürətli və rəqabətə davamlı inkişafı, yeni istehsal sahələrinin yaradılması, yerli istehsal hesabına qeyri-neft məhsulları ilə əhalinin təmin edilməsi səviyyəsinin yüksəldilməsi, həmin sahəyə daxili və birbaşa xarici investisiyaların yönəldilməsinin vacibliyi bir sıra normativ-hüquqi aktlarda, Dövlət proqramlarında, Strateji Yol Xəritələrində prioritet istiqamət kimi öz əksini tapmışdır (SYX, 2016a; SYX, 2016b; BİDP, 2017; QNST, 2018; RİDP, 2019).

Sahibkarlıq subyektlərinin müxtəlif mənbələrdən maliyyə (investisiya) təminatı məsələləri bir çox respublika və xarici ölkə alimləri tərəfindən araşdırılmış və bu zaman müxtəlif yanaşmalara rast gəlmək mümkündür. Məsələn, prof. T.N. Əliyevin fikrincə, sahibkarlıq subyektlərinin investisiya təminatının dayanıqlığına nail olmaq üçün regionlarda müştərək müəssisələrin, sənaye parklarının yaradılması vacib şərtdir (Əliyev, İsmayılov, 2018, s.49,50). Ölkədə regional-iqtisadi problemləri tədqiq edən prof. R.P.Sultanovanın (2016, s.94) fikrincə, sahibkarlıq fəaliyyətinin investisiya təminatı prosesində vençur maliyyələşdirilməsinə üstünlük verilməlidir.

Rusiya Federasiyasının iqtisadçı-alimi A.V. Andreev və onun həmmüəllifləri (2015, s.104) hesab edirlər ki, regional iqtisadiyyatın davamlı inkişafı üçün daim təkmilləşən maliyyə mexanizmi formalaşdırılmalıdır. Həmin ölkənin digər iqtisadçı-alimi S.M. Vdovin (2015, s.96; 98) hesab edir ki, regionda sahibkarlığın inkişafı üçün hər bir regionun spesifik xüsusiyyətlərinə uyğun bir neçə mərhələlərdən ibarət olan dayanıqlı inkişaf strategiyası işlənib hazırlanmalı və bu zaman bir-biri ilə əlaqədə olan bazis və xüsusi təyinatlı strategiyaya üstünlük verilməlidir. Bu zaman funksional təyinatlı strategiyanın üzvü tərkib hissəsini maliyyə, institusional-inkişaf, infrastruktur və istehsalın modernizasiyası strategiyaları təşkil etrməlidir. Adı çəkilən ölkənin digər iqtisadçı-alimi R.A. Popovun (2015, s.211, 212) fikrincə, sahibkarlığın maliyyə təminatı regional büdcənin formalaşdırılması modelinə söykənməli və bu prosesdə əsas iqtisadi subyektlər və yerli özünüidarəetmə orqanları iştirak etməlidirlər.

Qeyd edilən yanaşmaların əhəmiyyətini azaltmadan və uzun illər regionun idarə edilməsi prosesində apardığım müşahidələrə, formalaşdırılan təcrübəyə əsaslanaraq söyləmək olar ki, iqtisadi rayonda sahibkarlığın investisiya təminatının dayanıqlığına nail olmaq üçün ilk növbədə subyektlərin maliyyə resurslarına sərfəli və səmərəli çıxışı təmin edilməli və bu zaman əsas diqqət

kreditlərə zəmanət fondunun yaradılmasına, lizinq və alternativ maliyyə alətləri bazarının inkişafına, maliyyə əlçatanlığının artırılmasına yönəldilməlidir.

Metodologiya

Tədqiqat prosesində sistemli yanaşma, analitik ümumiləşdirmə, qrafik, təhlil və qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını respublikamızın və xarici ölkə alimlərinin tədqiq edilən problemə dair əsərlərində irəli sürülən müddəalar, eləcə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları təşkil edir.

Nəticələr və müzakirə

Aran iqtisadi rayonun iqtisadi-coğrafi xarakteristikası

Aran iqtisadi rayonu ölkəmizin ən böyük iqtisadi rayonu olub, ümumi sahəsi 21,2 min kv kilometr, əhalisinin sayı 2046,3 min nəfər təşkil edir. Əkinçilik regionu olan Aran iqtisadi rayonunun (AİR) əsas yeraltı sərvətləri neft, qaz, yodlu və bromlu mədən sularından və müxtəlif tikinti materiallarından ibarətdir, onun su ehtiyatları, əkinə yararlı, geniş torpaq fondu başlıca təbii sərvəti hesab edilir. Respublika üzrə mövcud olan bütün təsərrüfat (sahibkarlıq) subyektlərinin 19,2%-i, iqtisadiyyatda muzdla işləyənlərinin 12,7%-i, ümumi regional məhsulun 8,2%-i, o cümlədən sənaye məhsulunun 4,1%-i, kənd təsərrüfatı məhsullarının 32,1%-i, pərakəndə ticarət dövriyyəsinin 13,3%-i və əsas kapitala yönəldilən investisiyaların 3,6%-i AİR-ın payına düşür. Son üç ildə həmin göstəricilərin əksəriyyəti üzrə müsbət dinamika müşahidə edilir (cədvəl 1).

Cədvəl 1. Ölkə iqtisadiyyatında Aran iqtisadi rayonunun əsas sosial-iqtisadi göstəricilər üzrə payı, faizlə

Göstəricilərin adları	İllər			2016-2019-cu illər ərzində kənarlaşma (±)
	2016	2018	2019	
Ərazisi	24,5	24,5	24,5	X
Əhalinin sayı	20,2	20,3	20,3	+0,1
Təsərrüfat subyektlərinin sayı	19,6	19,4	19,2	-0,4
İqtisadiyyatda muzdla işləyənlərin sayı	14,0	13,8	12,7	-1,3
Əsas sahələr üzrə ümumi məhsul buraxılışı	7,3	7,5	8,2	+0,9
Sənaye məhsulu	3,5	3,2	4,1	+0,6
Kənd təsərrüfatı məhsulu	30,9	31,4	32,1	+1,2
Pərakəndə ticarət dövriyyəsi	13,6	13,4	13,3	-0,3
Əsas kapitala yönəldilən investisiyalar	5,1	2,6	3,6	-1,5

Mənbə: AR (2020); AR (2019); AR (2018); AR (2017) əsasında müəllif tərəfindən hesablanmışdır.


Rəsmi statistik məlumata görə, 2020-ci ilin əvvəlində AİR-in ərazisində müxtəlif növ sahibkarlıq fəaliyyəti ilə məşğul olan 81 xəstəxana; 335 ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələri; 378 məktəbəqədər təhsil, 930 əyani ümumtəhsil müəssisələri, 719 kütləvi kitabxana; 564 klub; 46 muzey; 19,3 min vahid mağaza; 53 mehmanxana, 3188 vahid iaşə fəaliyyət göstərən sahibkarlıq subyektləri; 203 tikinti təşkilatları; 348 sənaye müəssisəsi; 380,8 min ha olan kənd təsərrüfatı bitkilərinin əkin sahəsi; 1063 min baş malqara; 432 poçt; istifadədə olan 189,1 min əd. avtomobil mövcud olmuşdur (AR, 2018; AR, 2019; AR, 2017, AR, 2020, s. 460-468). Hesablamalar göstərir ki, təkcə 2015-2019-cu illərdə AİR

ərazisində 1588,9 min kv metr yaşayış evləri; 13,9 min şagird yerlik ümumtəhsil məktəbləri; 2726 yerlik məktəbəqədər təhsil müəssisəsi; 310 çarpayılıq xəstəxana; növbədə qəbulların sayı 145 olan ambulator-poliklinika müəssisələri tikilib istifadəyə verilmişdir (cədvəl 2).

Cədvəl 2. Aran iqtisadi rayonunda yaşayış evlərinin və sosial-mədəni obyektlərin istifadəyə verilməsi

Sosial obyektlər	İllər					2015-2019-cu illərdə Cəmi
	2015	2016	2017	2018	2019	
Yaşayış evlərinin istifadəyə verilməsi (min kv.m)	387,8	302,6	269,8	319,3	309,4	1588,9
Ümumtəhsil məktəbləri (min şagird yeri)	4,3	2,4	2,2	2,7	2,3	13,9
Məktəbəqədər təhsil müəssisələri (yer)	750	886	400	640	50	2726
Xəstəxanalar (çarpayı)	-	100	205	-	5	310
Ambulatoriya-poliklinika müəssisələri (növbədə qəbul)	135	-	10	-	-	145

Mənbə: AT, 2020, s. 202-208; AT, 2017, s.285-287.



Şəkil 1. Sahibkar firmalarda əsas kapitala yönəldilən investisiyaların iqtisadi-sosial göstəricilərə təsiri mexanizminin prinsipial sxemi.
Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Aran iqtisadi rayonun sahibkarlıq subyektləri və onların investisiya təminatı

AİR-də 2020-ci ilin əvvəlində 17,5 min Dövlət Reyestrində qeydə alınan kiçik, orta və iri sahibkarlıq subyekti və 186,3 min nəfər fərdi sahibkar qeydə alınmışdır. Hesablamalar göstərir ki, təkcə 2016-2019-cu illərdə onların sayı, müvafiq olaraq, 2994 vahid və 45,7 min nəfər artmışdır. Həmin dövrdə rayonda 3,6 min yeni sahibkarlıq subyektləri yaradılmış, 224 vahidi isə ləğv edilmişdir (Sİİ, 2016; Sİİ, 2017, Sİİ, 2018, s.111-119). Qeyd edildiyi kimi, tədqiq edilən regionda sahibkarlığın davamlı inkişafını şərtləşdirən əsas amillərdən biri onların investisiya təminatıdır. Bu vacib amil subyektlərin istehsal-təsərrüfat fəaliyyətinə – texniki-texnoloji, təşkilati və iqtisadi-sosial aspektdən təsir göstərir. Onların üzvü tərkib hissəsi tərəfimizdən tərtib edilən və öz əhatə dairəsi ilə mövcud yanaşmalardan fərqlənən 1 saylı şəkildə əks etdirilmişdir.

Cədvəl 3. Aran iqtisadi rayonunda bütün sahibkarlıq subyektləri üzrə əsas kapitala yönəldilmiş investisiyalar (mlyn. manat)


Rayonlar	İllər					2015-2019-cu illərdə Cəmi
	2015	2016	2017	2018	2019	
Aran iqtisadi rayon üzrə cəmi O cümlədən:	1106,5	808,5	1459,2	1472,3	1319,4	6165,9
Göyçay	60,6	29,2	57,0	35,6	99,7	281,1
Beyləqan	57,8	60,6	81,0	88,6	108,0	396,0
Ağcabədi	22,3	45,5	216,0	231,4	128,0	643,2
Bərdə	59,3	39,8	70,4	80,0	20,6	270,2
Neftçala	17,6	83,7	94,2	89,7	11,6	296,8
Biləsuvar	20,8	40,5	59,6	72,5	102,7	296,2
Salyan	92,7	73,3	135,2	82,8	43,6	427,6
Yevlax	39,8	35,4	110,2	72,8	32,9	292,2
Mingəçevir şəhəri	127,3	54,0	107,4	58,3	85,9	432,9
Ağdaş	121,3	51,1	55,8	99,4	39,3	366,9
Ucar	101,5	27,5	37,2	45,9	64,3	276,4
Zərdab	11,2	24,1	32,8	40,7	55,3	164,2
Kürdəmir	61,0	32,7	34,1	55,8	110,6	294,2
İmişli	68,2	57,7	93,8	71,9	63,6	355,2
Saatlı	38,7	33,0	55,4	23,2	14,5	164,8
Sabirabad	131,1	73,9	76,8	145,4	126,3	553,6
Hacıqabul	25,5	20,2	108,1	123,3	105,9	389,0
Şirvan şəhəri	49,3	26,1	34,0	49,1	106,9	265,4

Mənbə: AT (2020), s. 214-226.


Rəsmi statistik məlumatlar əsasında aparılan hesablamalar göstərir ki, 2015-2019-cu illərdə AİR-in bütün sahibkarlıq subyektləri üzrə əsas kapitala 6165,9 mlyn. man. investisiya yönəldilmişdir. Həmin vəsaitin 10,4%-i Ağcabədi; 8,9%-i Sabirabad; 6,9%-i – Səlyan; 7,0%-i – Mingəçevir; 6,4%-i Beyləqan; 5,9%-i – Ağdaş; 5,8%-i – İmişli; 6,3%-i – Hacıqabul rayon və şəhərlərinin payına düşmüşdür (cədvəl 3).

Əsas kapitala yönəldilən investisiyaların sahələr üzrə quruluşuna nəzər yetirərkən aydın olur ki, əgər 2015-ci ildə həmin vəsaitin 30%-i – məhsul, 61,5%-i – xidmət sahələrinə; 8,5%-i isə yaşayış evlərinin tikintisinə yönəldilmişdirsə, sonrakı illərdə həmin nisbət xeyli dəyişmiş və uyğun olaraq, 47,0%, 39,2% və 13,8% təşkil etmişdir (Diaqram 1).

AİR-da iqtisadi fəaliyyət sahələrinə yönəldilən investisiyalar orada əsas fondların dəyərinə də öz təsirini göstərilmişdir. Nəticədə 2015-2019-cu illərdə istifadəyə verilən əsas fondların dəyəri 3796,1 mlyn. man. təşkil etmişdir. İllər üzrə onların məbləğini əks etdirən məlumatlar 2 saylı diaqramda göstərilmişdir.



Diaqram 1. Aran iqtisadi rayonunun bütün sahibkarlıq subyektlərində əsas kapitala yönəldolən investisiyaların sahələr üzrə quruluşu, yekuna görə faizlə
Mənbə: AKOS, 2018; AMKOS, 2019; AT, 2019; AT, 2020 əsasında müəllif tərəfindən tərtib edilmişdir.



Diaqram 2. Aran iqtisadi regionun bütün sahibkarlıq subyektlərində istifadəyə verilən əsas fondların dəyəri
Mənbə: AT (2019); AT (2020) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Hesablamalar göstərir ki, həmin dövrdə tədqiq edilən iqtisadi regionda əsas kapitala yönəldilən investisiyaların 61,6%-i (3796,1: 6165,9 x 100) istifadəyə verilən əsas fondlara sərf edilmişdir. Buna baxmayaraq, həmin illər ərzində regionun sənaye müəssisələrində məhsul istehsalının həcmi 2,2 dəfə artsa da, həmin müəssisələrin anbarlarında qalıq məhsulun həcmi də 2,7 dəfə artaraq 2019-cu ilin sonunda 79,8 mlyn manat təşkil etmişdir (AR, 2017; AR, 2018; AR, 2019; AR, 2020, s.467). Bu faktlar onu göstərir ki, regionun sahibkarlıq subyektlərində əsas kapitala yönəldilən investisiyalar hələ də yüksək keyfiyyətli və ixrac yönümlü məhsul istehsalına təminat yaratmır. Müşahidələr göstərir ki, həmin investisiyalar əksər hallarda əsas fondların aktiv hissəsində deyil, onun passiv hissəsinə yönəldilir ki, bu da investisiyaların səmərəliliyinin səviyyəsinə öz mənfi təsirini göstərir. Digər tərəfdən, əsas kapitala yönəldilən investisiyaların mütləq hissəsini daxili investisiyalar təşkil edir ki, onun da əsası – amortizasiya ayırmalarından ibarətdir.

Nəticə / *Conclusion*

Bizim fikrimizcə, tədqiq edilən iqtisadi rayonda sahibkarlıq subyektlərinin investisiya təminatını yaxşılaşdırmaq üçün aşağıdakı bir sıra təşkilati-iqtisadi xarakterli tövsiyələrin həyata keçirilməsi məqsədə uyğun olardı:

- Mikro, kiçik, fərdi və orta sahibkarlıq subyektlərinin regionun bütün iqtisadi fəaliyyət sahələrində aşağı faizli (güzəştli) kreditlərə əlçatanlığının təmin edilməsi;
- Region ərazisində xarici və müştərək firmaların iştirakı ilə müasir innovasiya infrastrukturlarının (ərazi-istehsal klasterlərinin, biznes inkubatorlarının, aqro-emal müəssisələrinin, xüsusi sənaye zonalarının, model müəssisələrinin və s.) yaradılması;
- Ərazidə lizinq və alternativ maliyyə alətləri hesab edilən forvard, fyuçers, opsion, vençur fondu və s. bazarların inkişaf etdirilməsi;
- Aqrar-emal sferasında xarici investisiyaların təşviqi;
- Məqsədli investisiya-innovasiya və startap layihələrin işlənilməsi və tətbiqi prosesinin genişləndirilməsi;
- Qadın sahibkarlığının inkişafı üçün xüsusi güşəşt və imtiyazları nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması. Kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətlərinin regiona daxil olan inzibati rayonların xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilməsi. Qadın biznes inkubatorlarının şəbəkəsinin genişləndirilməsi;
- İnvestisiya layihələrinin həyata keçirilməsində lizinq və sığorta kompaniyalarının, eləcə də investisiya fondlarının, bankların fəaliyyətinin stimullaşdırılması;
- Sahibkarların investisiya layihələri üzrə təcrübələrinin və hüquqi biliklərinin artırılması üçün konsaltinq, marketinq və hüquq mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi.

İstifadə edilmiş ədəbiyyat / *References*

AKOS (2018). Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, “DSK”, 196 s.
AMKOS (2019). Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, “DSK”, 272 s.
Andreyev A.V. i dr. (2015). Osnovy regional'noy ekonomiki. M. KNORUS, 334 s.
AR (2020). Azərbaycanın regionları. Statistik məcmuə Bakı, “DSK”, 828 s.
AR (2019). Azərbaycanın regionları. Statistik məcmuə Bakı, “DSK”, 786 s.
AR (2018). Azərbaycanın regionları. Statistik məcmuə Bakı, “DSK”, 794 s.
AR (2017). Azərbaycanın regionları. Statistik məcmuə Bakı, “DSK”, 804 s.
ASG (2020). Azərbaycanın Statistik Göstəriciləri. Bakı, “DSK”, 772 s.
AT (2019). Azərbaycanda tikinti .Statistik məcmuə Bakı, “DSK”, 264 s.
AT (2020). Azərbaycanda tikinti .Statistik məcmuə Bakı, “DSK”, 276 s.
BİDP (2017, 28 noyabr). Azərbaycan Respublikasında baramaçılığın inkişafına dair 2018-2025-ci il üçün Dövlət Proqramı. Bakı, “Xalq” qəzeti.

Əliyev T.N., İsmayılov B.V. (2018). Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya. Bakı, "Elm və bilik", 224 s.

Popov R.A. (2015). Regional'noye upravleniye i territorial'noye planirovaniye. M, INFRA-M, 288 s.

QNST (2018). "Qeyri-neft sektorunda rəqabət qabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli Sərəncamı. Bakı, "Xalq" qəzeti, 20 sentyabr.

RİDP (2019). "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı, "Xalq" qəzeti, 30 yanvar.

Sİİ (2016). "Sosial, iqtisadi inkişaf" aylıq statistik bülleten № 12. Bakı, "DSK", 200 s.

Sİİ (2017). "Sosial, iqtisadi inkişaf" aylıq statistik bülleten № 12. Bakı, "DSK", 194 s.

Sİİ (2018). "Sosial, iqtisadi inkişaf" aylıq statistik bülleten № 12. Bakı, "DSK", 198 s.

Sultanova R.P. (2016). Regional'noye razvitiye prioritetnykh otrasley promyshlennosti Azerbaydzhana. International scientific periodical journal for economists and jurists "The genesis of genius", Geneva, Switzerland, July, p.p.

SYX (2016a). Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 96 s.

SYX (2016b). Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 157 s.

Vdovin S.M. (2015). Strategiya i mekhanizmy ustoychivogo razvitiya regiona M, INFRA-M, 154 s.

Пути улучшения инвестиционной обеспеченности предпринимательских субъектов в Аранском экономическом районе

Лютвели Бабаев
Доктор философии по экономике, докторант Аграрного Центра Науки и Инновации Азербайджан. E-mail: lutveli.babayev59@mail.ru

Резюме. В статье на основе многолетних статистических данных и при помощи различных методов исследования проанализированы и оценены организационно-экономические и социальные аспекты инвестиционной обеспеченности предпринимательской деятельности в Аранском экономическом районе Азербайджана. При этом основное внимание было уделено обоснованию актуальности темы, исследованию экономико-географических характеристик региона, объемов инвестиций в основной капитал предприятиями, их структуры по отраслям, обновления основных средств. Выявлены соответствующие резервные возможности и указаны пути их использования, а также разработана более совершенная принципиальная схема механизма, влияющая на социально-экономические показатели инвестиций.

Ключевые слова: предпринимательские субъекты, инвестиции в основной капитал, инвестиционные проекты, финансовые инструменты, регион.